# Müstəqil Azərbaycanın qurucusu və memarı

*Xalqımız çoxəsrlik dövlətçilik ənənələrimizin yaşamasında və inkişafında böyük xidmətlər göstərmiş dahi şəxsiyyətlərlə zəngindir. Bu şəxsiyyətlərin böyüklüyü bir tərəfdən yaşadıqları dövrdə gördükləri işlərin əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən onların fəaliyyətinin siyasi, iqtisadi, mənəvi və ideoloji baxımdan gələcək tarixi proseslərə təsiri ilə müəyyənləşir.*



Əsasən dərin elmi biliklərə əsaslanan siyasi potensialını çevik dəyərləndirməklə hadisələrə müdrik qiymət verməyi bacaran şəxsiyyətlər cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, təmsil etdiyi dövləti zamanın çətin sınaqlarından uğurla çıxarmaqla milli xilaskara çevrilirlər. Tarixi proseslərin təhlili göstərir ki, həqiqi lideri olmayan xalqın müstəqilliyi də, dövlətçiliyi də hər zaman sual altında olub. Bu baxımdan qeyd edilmiş fundamental bacarıq və qabiliyyətə malik müasir tarixi şəxsiyyətlərimizdən ümummilli liderlik zirvəsinə ucalan Heydər Əliyev olmuşdur.

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünyaşöhrətli siyasətçi və böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyev müasir dövrümüzün əbədiləşmiş şəxsiyyəti olaraq çağdaş tariximizə ən böyük azərbaycanlı kimi həkk olunmuşdur. Belə ki, qüdrətli Heydər Əliyev şəxsiyyəti xalqımızın dövlətçilik şüurunun, eləcə də müasir ictimai-siyasi fikrin ən canlı təzahürüdür. Heydər Əliyevin ümummilli liderə çevrilməsini təmin edən başlıca amil onun ən çətin və mürəkkəb siyasi şəraitdə məsuliyyətdən boyun qaçırmaması, xalqının, dövlətinin problemlərinə biganə qalmaması olmuşdur.

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan, hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşdı, ölkədə ictimai-siyasi gərginlik daha da artaraq anarxiya həddinə çatdı. Bu vəziyyət 1993-cü ilə qədər davam etdi. 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin xalqın təkidli xahişləri ilə ikinci dəfə hakimiyyətə gəlməsindən sonra ölkəmizdə ictimai-siyasi sabitlik təmin edildi. Bu gün ölkəmizdə mövcud olan ictimai-siyasi sabitliyin, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır.

Ulu öndər ikinci dəfə hakimiyyətdə olduğu müddətdə Azərbaycanda hüquqi dövlətin formalaşması və ölkəmizin mühüm beynəlxalq qurumlarda layiqincə təmsil olunması üçün əvəzsiz xidmətlər göstərmişdir. Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi altında yeni Konstitusiya layihəsi hazırlanmış və 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilmişdir. Konstitusiyada əks olunan müddəalar ölkəmizin gələcək inkişafının mühüm istiqamətlərini müəyyənləşdirmiş, Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət olmasını bəyan etmiş, insan hüquq və azadlıqlarının prioritetliyini ön plana çəkməklə ölkənin gələcək inkişaf modeli üçün hüquqi baza yaratmışdır. Konstitusiyanın qəbulu dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artması baxımından da çox mühüm ictimai-siyasi hadisə kimi qiymətləndirilməlidir. Məhz Konstitusiya ölkədəki köklü dəyişikliklərə müsbət təsir göstərmiş, hüquqi dövlət quruculuğu prosesinin ümumi istiqamətinin yönünü təyin etmişdir.

Ümumxalq səsverməsi yolu ilə Əsas Qanun qəbul edildikdən sonra Respublikamızda hüquqi islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının ardıcıl həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə 1996-cı ildə Hüquqi İslahatlar Komissiyası yaradılmışdır. Komissiya tərəfindən respublikada bir çox sahələri əhatə edən yeni qanun və məcəllə layihələri hazırlanaraq Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmişdir.

Hüquqi İslahatlar Komissiyası tərəfindən hazırlanmış müxtəlif qanunların və digər normativ-hüquqi aktların qəbulu hüquqi islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində böyük rol oynamışdır.

Əsas Qanunun ən böyük fəsli olan üçüncü fəsli bütünlüklə əsas insan və vətəndaş hüquqları və azadlıqlarına həsr edilmiş, həmin fəsildə demokratik, hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquqlar və azadlıqlar, onların reallaşdırılması mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq, qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Bununla yanaşı, bildiyimiz kimi, Konstitusiyamız hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normalarına hörmətinin ifadəsi kimi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri ölkənin hüquq sisteminin ayrılmaz tərkib hissəsi kimi nəzərdən keçirir.

Yeni Konstitusiyanın qəbulu ölkəmizdə Konstitusiya Məhkəməsi kimi insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış yeni təsisatların yaradılması baxımından da mühüm əhəmiyyət kəsb etmişdir.

Konstitusiya Məhkəməsi fəaliyyət dövrü ərzində ölkəmizdə hüququn inkişafına layiqli töhfələr verməklə dövlət quruculuğu prosesində fəal iştirak etmiş və qəbul etdiyi qərarlarda konkret məsələlərə dair Konstitusiyanın konsepsiyasından, məzmun və mahiyyətindən irəli gələn hüquqi mövqeyini ifadə etməklə hüquq yaradıcılığı və hüquq tətbiqetmə təcrübəsinə pozitiv təsir göstərmişdir.

Heydər Əliyev dühasının birbaşa rəhbərliyi, verdiyi tövsiyələri əsasında ərsəyə gəlmiş Azərbaycan Respublikasının Konstitusiyasına uyğun yaradılmış Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakimiyyətin bölgüsü sistemində özünəməxsus yer tutmaqla hakimiyyətlər arasında səlahiyyət bölgüsü ilə bağlı mübahisələri həll edir və barışdırıcı bir orqan olaraq cəmiyyətdə və dövlətdə sabitliyin təminatçısı kimi çıxış etməklə dövlət orqanları arasında arbitr rolunu oynayır.

İctimai münasibətlərin sürətli inkişafı, qanunvericilik prosesinin dinamikliyi, konstitusiya nəzarətinin daha səmərəli həyata keçirilməsinin zəruriliyi, eləcə də, Azərbaycanda həyata keçirilən genişmiqyaslı demokratikləşmə prosesləri, insan hüquq və azadlıqlarının müdafiəsinin hüquqi mexanizmlərinin daha da təkmilləşdirilməsi və Avropa Şurasına daxil olarkən Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi ölkəmizdə Konstitusiya islahatlarının həyata keçirilməsini zəruri edirdi.

Məhz bu zərurətdən irəli gələrək 24 avqust 2002-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında referendum aktına uyğun olaraq, Konstitusiyaya bir sıra dəyişikliklər edilmişdir. Bu müddəaların bir qismi məhz Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə bağlı olmuşdur.

Belə ki, 24 avqust 2002-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiya dəyişikliklərinə qədər Konstitusiya Məhkəməsinə müraciət etmək səlahiyyətinə malik subyektlərin siyahısı məhdud idi və bu ölkəmizdə konstitusiya nəzarətinin daha səmərəli səviyyədə həyata keçirilməsinə imkan vermirdi. Referendum aktına uyğun olaraq, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman), bütün məhkəmələr və hər kəs bilavasitə Konstitusiya Məhkəməsinə müraciət hüququ əldə etmişdir. Bu dəyişikliklər insan hüquqlarının müdafiəsi və eyni zamanda hüququn aliliyinin təmin edilməsi sahəsində konstitusiya nəzarətinin səmərəliliyini daha da artırmışdır.

Heydər Əliyevin istər hüquqi, istərsə də iqtisadi və siyasi sahədə apardığı islahatlarla yanaşı, öz xalqı qarşısında ən böyük xidmətlərindən biri də özündən sonra bu siyasi və ideoloji xətti davam etdirə biləcək siyasi lider yetişdirməsidir. O, 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu gün qürur hissilə qeyd edə bilərik ki, cənab Prezident İlham Əliyev ona olan bu etimadı layiqincə doğrultmaqla Heydər Əliyev siyasətini uğurla davam etdirir. Bu ötən 19 ildə cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə yüksək inkişafa nail olub, qüdrətli ölkəyə çevrilib. Ölkə başçısı İlham Əliyev fəxrlə qeyd edib ki, "mən hər zaman çalışmışam ki, atamın yoluna sadiq olum. 2003-cü ildə ilk dəfə Azərbaycan xalqı mənə etimad göstərəndə seçkilərdən əvvəl mən demişdim ki, əgər siz mənə bu inamı, etimadı göstərsəniz, mən Heydər Əliyev siyasətinə sadiq olacağam, bütün istiqamətlər üzrə onun yolu ilə gedəcəyəm. Şadam ki, sözümə sadiq oldum, sözümü tutdum".

Heydər Əliyevin siyasi hakimiyyətə ikinci dəfə qayıdışında bu günədək ölkəmizin vahid bir siyasi xətt üzrə irəliyə aparılması bizi dünya miqyasında yüksək inkişaf yolu olan ölkə kimi beynəlxalq münasibətlərdə güclü və etibarlı tərəfdaşa çevirmişdir. Artıq həlledici siyasi dairələr də etiraf edirlər ki, Azərbaycanın iştirakı və razılığı olmadan regionda irimiqyaslı layihələr həyata keçirmək mümkün deyil. Təsadüfi deyil ki, cənab İlham Əliyev beynəlxalq aləmdə regional lider kimi tanınır və qəbul edilir.

Məlumdur ki, bütün xalqların qarşısında duran ən ümdə vəzifə müstəqil dövlətə sahib olmaqdır. Lakin azadlığı əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər məsuliyyətli və mürəkkəbdir. Belə ki, hər bir dövlətin öz suverenliyini və ərazi bütövlüyünü qoruması onun güclü ordu quruculuğu sayəsində mümkün ola bilər. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə nizamlı Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü və qısa müddətdə müasir dövrün tələblərinə cavab verə biləcək Silahlı Qüvvələrin formalaşmasının əsası qoyuldu. Bu proseslər çərçivəsində ulu öndər deyirdi: "Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq".

Bu gün Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qorumağa qadir olan, torpaqlarımızı erməni işğalından azad edən güclü və qalib orduya malik olması Heydər Əliyevin misilsiz xidmətləri sayəsində mümkün olmuşdur. Ümummilli lider uzun illər ordu quruculuğu ilə yanaşı, Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də gərgin fəaliyyət göstərmişdir. Ulu öndər Heydər Əliyev bir çox dünya dövlətləri və təşkilatları ilə bu mövzuda danışıqlar apararaq Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi qətnamələrin və bəyanatların qəbul olunmasına nail olmuşdur. Heydər Əliyev beynəlxalq müstəvidə Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini daim əsaslandırıb və buna da nail olub.

Son 19 ildə bu qeyd edilən siyasət cənab Ali Baş Komandan tərəfindən uğurla davam etdirilərək güclü ordu quruculuğu həmişə ən prioritet məsələ kimi ön planda saxlanılmışdır. Ölkə başçısı öz çıxışlarında dəfələrlə qeyd etmişdir ki, "bu gün Azərbaycan Ordusu öz təchizatı baxımından dünyanın ən güclü orduları sırasındadır və ölkənin qarşısında duran bütün məsələləri həll etmək gücündədir". Ordu quruculuğu haqqında cənab Prezident deyib: "Ordu quruculuğu bu illər ərzində mənim işimin əsas hissəsi olub. Biz həmişə ordumuzun necə gücləndirilməsi haqda düşünmüşük. Ən müasir silahlar almaq üçün təkcə maddi vəsait kifayət etmir, eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir ki, biz buna nail olduq. Mənim təşəbbüsümlə müdafiə sənayesi yaradıldı və bu gün biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Bu gün öz təchizatına görə hərbi bazalarımız ən yüksək standartlara cavab verir və Vətən müharibəsindəki şanlı qələbəmiz bunu bütün dünyaya göstərdi".

Bu gün xalqımız özünün şanlı tarixi dövrünü yaşayır. Əsasını ulu öndərin qoyduğu müasir, güclü və qüdrətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın bir müddətdə ermənilər tərəfindən zəbt olunmuş ərazilərimizi cəmi 44 gün ərzində azad etdi. Həqiqətən də bu Tarixi Zəfər Heydər Əliyev siyasətini ləyaqətlə davam etdirən, ölkəmizdə mövcud olan bütün xalqların vahid milləti kimi Vətən müharibəsinə hazırlayan, "Mən hər bir azərbaycanlının Prezidentiyəm" deyən Prezident İlham Əliyevin əvəzedilməz liderlik missiyasının təntənəsidir.

Əldə etdiyimiz bu tarixi qələbə ilə tariximizin ən şanlı qələbəsini qazandıq və qürur hissilə qeyd etmək olar ki, yeni müharibə modelini dünya hərb tarixinə təqdim etdik. Bizlər bu qələbə sevincini Azərbaycan xalqına bəxş edən Ali Baş Komandana və bu şanlı tarixi qanı, canı ilə yazan şəhidlərimizə və qazilərimizə borcluyuq. Əvəzedilməz liderlik sayəsində formalaşmış möhkəm xalq-iqtidar birliyi Azərbaycana son yüzilliklər ərzində əldə etmədiyi qələbə sevincini yaşatdı.

Xalqa müraciətində Ali Baş Komandan böyük qürur və fəxarətlə deyib: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Biz Şuşanı azad etmişik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Bu gün artıq bizlər Ümummilli liderin "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamını daha iftixarla səsləndirə bilirik. Çünki azərbaycanlı olmaq qüdrətli və qalib dövlətə sahib olmağı zəruri edir. Heydər Əliyev deyirdi: "Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır". Əlbəttə, bu, öz-özünə baş verən bir proses deyil və yalnız ardıcıl ideoloji və siyasi xəttin yürüdülməsi yolu ilə mümkün ola bilərdi. Bu baxımdan, dahi liderin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən və onları vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrilmişdi. Unutmamalıyıq ki, düşmən üzərində qələbəmiz Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin qələbəsi, təntənəsidir.

Əldə etdiyimiz bütün qələbələrin və uğurların təməlində Heydər Əliyevin siyasi kursu və inkişaf strategiyası dayanır. Bu gün bu siyasi kurs və inkişaf strategiyası ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanımızı daha böyük uğurlara aparmaqla Heydər Əliyevin işıqlı ideyalarını daim yaşadacaqdır. Azərbaycan və Heydər Əliyev adları əsrlər boyu qoşa səslənəcəkdir. Onun nurlu xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır...

Bizlər müasir Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevi anadan olmasının 99-cu ildönümü ilə əlaqədar böyük ehtiram və minnətdarlıqla anırıq. Əminliklə demək olar ki, əbədiyaşar lider xalqı üçün etdiyi bütün fədakarlıqları ilə qəlbi Azərbaycanla döyünən hər bir azərbaycanlının ürəyində daim yaşayacaq.

**Bəkir QARALOV,**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının Cinayət və inzibati hüquq şöbəsinin baş məsləhətçisi, dövlət qulluğunun müşaviri.**